# 196 Beynəlxalq Qırmızı Xaç Komitəsinin azadlıqdan məhrumetmə yerlərində səlahiyyətlərinin həyata keçirilməsinin təmin edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azadlıqdan məhrumetmə yerlərində məhbusların saxlanılması şəraitinin yaxşılaşdırılması, onlarla davranışda Birləşmiş Millətlər Təşkilatının 1955-ci il tarixli "Məhbuslarla minimal standart davranış qaydaları"na riayət edilməsi və bu sahədə beynəlxalq təşkilatlarla əməkdaşlığın səmərəliliyinin artırılması məqsədi ilə **qərara alıram:**

1. 1949-cu il 12 avqust tarixli Cenevrə Konvensiyalarına, Beynəlxalq Qırmızı Xaç Komitəsinin Nizamnaməsinə uyğun olaraq bu beynəlxalq təşkilatın nümayəndələrinin azadlıqdan məhrumetmə yerlərində məhbuslarla görüşlərinə dair səlahiyyətlərinin həyata keçirilməsini Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi təmin etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə tapşırılsın ki, Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə birlikdə bu məsələyə dair müvafiq Sazişin qısa müddətdə hazırlanmasını təmin etsin.

3. Beynəlxalq Qırmızı Xaç Komitəsi ilə Sazişin imzalanması səlahiyyəti Azərbaycan Respublikasının ədliyyə naziri Südabə Cəmşid qızı **Həsənovaya** verilsin.

4. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 2-ci bəndində göstərilən Sazişi imzalamaq səlahiyyətinin Azərbaycan Respublikasının ədliyyə naziri Südabə Cəmşid qızı Həsənovaya verilməsi barədə Beynəlxalq Qırmızı Xaç Komitəsinə məlumat versin.

5. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

**Bakı şəhəri, 10 mart 2000-ci il**
**№ 357**

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.-2000.- 31 mart, № 3.- S.1136.